ACCU-CHEK®
SmartGuide Predict

Roche

# İSTİFADƏÇİ TƏLİMATI

## ACCU-CHEK SMARTGUIDE PREDICT TƏTBİQİ

**Mündəricat**

1 Bu Təlimat barədə ... 3

2 Məhsul barədə məlumat ... 4
2.1 Nəzərdə tutulan istifadə ... 4
2.2 İstifadə halları ... 4
2.3 Nəzərdə tutulan istifadəçilər ... 4
2.4 Əks-göstərişlər ... 4
2.5 Məhdudiyyətlər ... 4
2.6 Təhsil və təlim ... 4
2.7 Əsas funksiyalar ... 5

3 Ümumi təhlükəsizlik məlumatları ... 8

4 Tətbiqdən istifadə ... 9
4.1 Tətbiqdən istifadə üçün ilkin şərtlər ... 9
4.2 Buraxılış qeydləri ... 9

5 Başlamaq ... 10
5.1 Tətbiqin quraşdırılması və silinməsi ... 10
5.2 Predict tətbiqinə giriş etmək ... 10
5.3 Accu-Chek SmartGuide tətbiqinin quraşdırılması ... 10

6 Mobil cihazınızın konfiqurasiya edilməsi ... 12
6.1 Ümumi tələblər ... 12
6.2 Girişin mühafizəsi ... 12

7 Əsas ekran ... 13
7.1 Naviqasiya elementləri ... 14

8 Qlükoza proqnozu ... 15
8.1 Qlükoza proqnozu ilə bağlı xəta mesajları ... 15
8.2 Aşağı qlükoza proqnozu ... 16
8.3 Aşağı qlükoza proqnozu ilə bağlı istisnalar ... 16

9 Gecə üçün aşağı proqnoz ... 18
9.1 Gecə üçün aşağı proqnozla bağlı xəta mesajları ... 19
9.2 Gecə üçün aşağı proqnozun aktivləşdirilməsi ... 20

10 Qlükoza nümunələri ... 21
10.1 Qlükoza nümunələrinin növləri ... 21
10.2 Aşağı və yüksək qlükoza nümunələrinin mümkün səbəbləri ... 23
10.3 Qlükoza nümunəsi xatırlatmasının təyin edilməsi ... 24
10.4 Qeydin əlavə edilməsi ... 25
10.5 Həftəlik xülasə üçün bildirişin aktivləşdirilməsi ... 25

11 Hesabatı ixrac edin ... 26

12 Tətbiq parametrləri ... 27

13 Nasazlıqların aradan qaldırılması ... 29
13.1 Nasazlıqların aradan qaldırılması ... 29
13.2 Bildirişlərə ümumi baxış ... 29

14 Müştəri dəstəyi ... 30

15 Texniki məlumatlar ... 31

16 Tətbiq işarələrinin izahı ... 32

17 Simvolların izahı ... 34

# 1 Bu Təlimat barədə

Tətbiqin bütün funksiyaları ilə tanış olmağınıza kömək etməsi üçün təlimatları diqqətlə oxuyun. Tətbiq gözlədiyiniz kimi işləmirsə, bu İstifadəçi təlimatının nasazlıqların aradan qaldırılması bölməsinə nəzər salın. Hələ də axtardığınızı tapa bilmirsinizsə, müştəri dəstəyi ilə əlaqə saxlayın.

Bu İstifadəçi təlimatı aşağıdakı məlumatları xüsusi yolla vurğulayır:

**⚠ XƏBƏRDARLIQ**

⚠ **XƏBƏRDARLIQ** dedikdə proqnozlaşdırıla bilən ciddi təhlükə nəzərdə tutulur.

**⚠ EHTİYAT TƏDBİRİ**

⚠ **EHTİYAT TƏDBİRİ** dedikdə məhsuldan təhlükəsiz və effektiv şəkildə istifadə etmək, yaxud məhsula zərər dəymәsinin qarşısını almaq üçün atmalı olduğunuz addım nəzərdə tutulur.

**QEYD**

QEYD yardımçı məlumat və ipuclarına malikdir.

# 2 Məhsul barədə məlumat

## 2.1 Nəzərdə tutulan istifadə

Accu-Chek® SmartGuide Predict tətbiqi qlükozaya davamlı nəzarət üçün qoşulmuş sistemdən (CGM) istifadə edən şəkərli diabet xəstələri üçün proqram təminatı tətbiqidir.

Accu-Chek SmartGuide Predict tətbiqi:

- şəkərli diabet xəstələrinin öz diabet məlumatlarına baxması və təhlil etməsinə kömək edən məlumat idarəetmə alətidir.
- şəkərli diabet xəstələrinin evdə diabetə gündəlik nəzarət etməsi məqsədilə istifadə üçün köməkçi vasitə kimi nəzərdə tutulmuşdur.
- Accu-Chek SmartGuide tətbiqinin yardımçı tətbiqidir.

## 2.2 İstifadə halları

Accu-Chek SmartGuide Predict tətbiqi (tətbiq) gündəlik əsasda evdə istifadə üçün nəzərdə tutulmuşdur.

Accu-Chek SmartGuide Predict tətbiqi əvvəlki qlükozaya davamlı nəzarət (CGM) məlumatlarına nəzər salmaq və gələcək CGM dəyərləri ilə bağlı proqnozlar vermək üçün nəzərdə tutulmuşdur.

Bu tətbiqin düzgün fəaliyyəti müvafiq parametrlərə malik uyğun mobil cihazdan asılıdır. Uyğun mobil cihazlar barədə ən son məlumatlar üçün aşağıdakı linkə toxunun **https://tools.accu-chek.com/documents/dms/index.html**.

## 2.3 Nəzərdə tutulan istifadəçilər

Nəzərdə tutulan istifadəçilər aşağıdakılardır:

- 18 yaşına çatmış və daha yuxarı yaşda olan yetkinlər
- Şəkərli diabet xəstələri

## 2.4 Əks-göstərişlər

Tətbiq hər hansı funksiyaya nəzarət etmək və ya qoşulmuş cihazların hər hansı məlumatını dəyişdirmək üçün nəzərdə tutulmayıb.

Tətbiq qoşulmuş cihazların (qan şəkərini ölçən cihaz, insulin qələmləri və ya müvafiq CGM tətbiqindəki CGM məlumatları) əsas displeyini əvəz etmək üçün nəzərdə tutulmayıb.

Pasiyentlər əvvəlcədən səhiyyə işçisi ilə məsləhətləşmədən göstərilən məlumatlara əsasən terapiyanı dəyişdirməməlidirlər.

## 2.5 Məhdudiyyətlər

Accu-Chek SmartGuide Predict tətbiqi müvafiq şəkərli diabet xəstəsinin CGM dəyərlərini real vaxt rejimində qəbul etməlidir.

CGM məlumatlarının toplanmasındakı boşluqlar funksiyaların məhsuldarlığının aşağı düşməsinə səbəb ola bilər.

## 2.6 Təhsil və təlim

Bu tətbiq əvvəlcədən hər hansı təhsil və ya təlim olmadan istifadə edilə bilər.

## 2.7 Əsas funksiyalar

Predict tətbiqinin düzgün şəkildə işləməsi üçün CGM sensorunuzu quraşdırmalısınız. Accu-Chek SmartGuide tətbiqinin İstifadəçi təlimatının Sensorunuzun kalibrasiya edilməsi fəslindəki addımlara əməl edin.

Ən azı 1 saatlıq fasiləsiz CGM məlumatlarının köçürülməsi tələb olunur ki, ilkin qlükoza proqnozunuzu əldə edə biləsiniz. Gecə ərzində aşağı qlükoza səviyyəsinə malik olma ehtimalınızı proqnozlaşdırmaq üçün ən azı 1 günlük məlumatların olması tələb edilir.

Bu bölmə tətbiqin əsas funksionallıqlarına ümumi baxış təmin edir:

- Qlükoza proqnozu
- Aşağı qlükoza proqnozu
- Gecə üçün aşağı proqnoz
- Qlükoza nümunələri
- Fərdiləşdirilə bilən bildirişlər
- Hesabatı ixrac edin
- Əsas ekran
- Məlumatların ötürülməsi
- Accu-Chek SmartGuide tətbiqinə maneəsiz inteqrasiya

### Qlükoza proqnozu

Predict tətbiqi Accu-Chek SmartGuide tətbiqindən informasiyanı toplayır və istifadə edir.

Qarşıdakı 2 saat üçün qlükoza proqnozunuz CGM sensorunuz düzgün şəkildə quraşdırıldıqdan və Accu-Chek SmartGuide tətbiqindən bu tətbiqə minimum 1 saatlıq fasiləsiz CGM məlumatları köçürüldükdən sonra göstərilir.

Bu funksiya barədə ətraflı məlumat üçün Qlükoza proqnozu fəslinə nəzər salın.

### Aşağı qlükoza proqnozu

Tətbiq 30 dəqiqə ərzində baş verəcək mümkün aşağı qlükoza halını aşkar edir və bu barədə sizə məlumat verir. Defolt olaraq aldığınız *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişi ilk dəfə bu tətbiqi açdığınız zaman artıq yanılı vəziyyətdə olur. Onu söndürmək üçün **Menyudan Bildiriş parametrləri** bölməsinə keçid edə bilərsiniz. Aşağı qlükoza proqnozu kartı yenə də tətbiqin Əsas ekranında görünəcək.

Kilid ekranınızda və ya digər hər hansı ekranın yuxarısından tutub sürüşdürdüyünüz zaman *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişi görünür. Daha çox detal və ata biləcəyiniz potensial addımlar barədə məlumat əldə etmək üçün bildirişə toxunun.

Aşağı qlükoza proqnozu funksionallığı yalnız Accu-Chek SmartGuide tətbiqində aşağı qlükoza alarmı 60 mq/dL (3,3 mmol/L) və 100 mq/dL (5,5 mmol/L) aralığına təyin edilərsə, işləyir. Bu bildiriş aşağı qlükoza alarmınız 100 mq/dL (5,5 mmol/L) həddindən yuxarıya təyin edildiyi zaman işləmir.

Bu bildiriş barədə ətraflı məlumat üçün Qlükoza proqnozu fəslinə nəzər salın.

### Gecə üçün aşağı proqnoz

Bu funksiya gecə ərzində aşağı qlükozaya malik olma ehtimalınızı proqnozlaşdıraraq yatmazdan əvvəl atacağınız addımlara qərar verməyinizə icazə verir.

Qlükoza səviyyəsinin aşağı düşməsi dedikdə qlükoza dəyərinizin 70 mq/dL (3,9 mmol/L) göstəricisindən aşağı düşə biləcəyi nəzərdə tutulur.

Bu funksiyanı aktivləşdirdiyiniz və bildirişləri yandırdığınız halda yuxuda olduğunuz zaman aşağı qlükoza riskiniz yüksək olarsa, *Gecə üçün aşağı proqnoz verildi!* bildirişini ala bilərsiniz. Predict tətbiqi qlükoza proqnozunuzu vermək üçün ən azı 1 günlük məlumatların olmasını tələb edir.

Siz həm də Gecə üçün aşağı proqnoz funksiyasını quraşdıra və manual olaraq hesablanma aparılmasını tələb edə bilərsiniz.

Gecə zamanı aşağı qlükoza səviyyəsi barədə ətraflı informasiya əldə etmək üçün Gecə üçün aşağı proqnoz fəslinə nəzər salın.

### Qlükoza nümunələri

Bu funksiya gün və ya həftə (B.e.–B.) ərzində baş verən təkrarlanan qlikemik hadisələri müəyyən edir. Bu, qlükoza səviyyələrinizi normal aralıqda saxlamağınıza kömək etmək üçün təsirli addımlar atmağınıza icazə verir.

Predict tətbiqi Accu-Chek SmartGuide tətbiqindən CGM məlumatlarını əldə etdiyi zaman son 24 saatda aşkar edilmiş nümunələr Əsas ekrandakı qrafikin aşağısında görünür.

Nümunələr çox aşağı qlükoza və ya aşağı qlükoza nümunəsi kimi ən yüksək sağlamlıq riskləri yuxarıda birinci sırada olmaqla ard-arda görünür. Bundan əlavə, aşkar edilmiş nümunələrinizin hər hansı biri ilə bağlı xatırlatmalar yarada bilərsiniz.

Siz həftənin hər bazar ertəsi günü həftəlik əsasda nümunələrlə bağlı xülasə əldə edirsiniz. Həmin xülasə hazır olan zaman bildiriş almaqla bağlı özünüz qərar verirsiniz.

**Qlükoza nümunələri ekranındakı Cari nümunələr panelindən**

- Son 2 həftə (keçən həftənin bazar ertəsindən hazırkı vaxta qədər) ərzində aşkar edilmiş bütün nümunələrə nəzər salın. Siz həm də xatırlatma qurulmuş nümunələri görə bilərsiniz.
- Accu-Chek SmartGuide tətbiqinin qeyd kitabçasındakı hər hansı əlaqədar karbohidrat, insulin və qan şəkəri nəticəsi qeydi də daxil olmaqla daha çox informasiyaya baxmaq üçün aşkar edilmiş hər hansı bir nümunəyə toxunun. Hər hansı bir gün üzrə detallar və qeyd kitabçası informasiyasına baxmaq üçün nümunədə həmin günə toxunun.
- Keçən həftəyə aid xülasə hazır olanda bildiriş almaq üçün onu quraşdırın.

**Qlükoza nümunələri ekranındakı Keçmiş nümunələr panelindən**

- Artıq aşkar olunmayan, əvvəlcə son ay göstərilməklə sıralanan həmin nümunələrə nəzər salın. 2 həftədən daha köhnə keçmiş nümunələr 6 aya qədər ayrı saxlanılır.

Nümunələr barədə ətraflı məlumat üçün Qlükoza nümunələri fəslinə nəzər salın.

### Fərdiləşdirilə bilən bildirişlər

Gecə vaxtı aşağı göstərici ehtimalınız, eləcə də həftəlik nümunə xülasəniz üçün bildirişləri təyin edin. 30 dəqiqə ərzində aşağı qlükoza səviyyənizin olacağı ilə bağlı bildiriş defolt olaraq yanılı vəziyyətdədir. Fərdiləşdirilə bilən bildirişlər funksiyası vasitəsilə şəxsi ehtiyaclarınız və seçimlərinizi uyğunlaşdırın.

**Menyudan Bildiriş parametrləri** bölməsinə keçid edə bilərsiniz. Hər hansı problemlə üzləşsəniz, mobil cihazınızın iş parametrlərini də yoxlaya bilərsiniz. Bildirişlər yandırılmalıdır.

### Hesabatı ixrac edin

Nümunələriniz və/yaxud ambulator qlükoza profili (AGP) hesabatınızın ixrac olunması üçün ikihəftəlik məlumatları seçin. Hesabatınızın təhlil edilməsi əvvəlki ümumi qlikemik statusunuzu daha yaxşı başa düşməyinizə imkan verir. Bu qlükoza məlumatları tarixçəsinə malik olmaq gələcəkdə qlükoza səviyyələrinizi daha yaxşı idarə etməyinizə kömək edir. Bundan əlavə, hesabatı asanlıqla səhiyyə işçisi ilə paylaşa bilərsiniz.

Bu hesabatı əldə etmək qaydası barədə daha çox informasiya üçün Hesabatı ixrac edin fəslinə nəzər salın.

### Əsas ekran

Bütün məlumatlarınıza bir baxışda nəzər salın. Əvvəlki və ən son qlükoza dəyəriniz, eləcə də qlükoza proqnozunuz kimi bütün müvafiq məlumatlar qrafikdə görünür.

Gecə üçün aşağı proqnoz və aşağı qlükoza proqnozu kartları, eləcə də son 24 saatda aşkar edilmiş nümunələr Əsas ekrandakı qrafikin aşağısında görünür. Yadda saxlayın ki, *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişi yalnız aşağı qlükoza səviyyəsinə malik olma riskiniz yüksək olarsa, görünür. *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişi ilkin olaraq Kilid ekranınızda görünəcək. Defolt olaraq bu bildiriş ilk dəfə bu tətbiqi açdığınız zaman artıq yanılı vəziyyətdə olur.

Bu ekran və tətbiqdəki naviqasiya elementləri barədə ətraflı məlumat üçün Əsas ekran fəslinə nəzər salın.

### Məlumatların ötürülməsi

Predict tətbiqi tətbiqdə saxlanılan bütün diabet məlumatlarınızı Accu-Chek hesabınıza ötürür. İnternet bağlantısı tələb edilir.

### Accu-Chek SmartGuide tətbiqinə maneəsiz inteqrasiya

Accu-Chek SmartGuide tətbiqi və Predict tətbiqi şəkərli diabet məlumatlarınızı paylaşdığına görə bu tətbiqdən birbaşa Accu-Chek SmartGuide tətbiqinə keçid edə bilərsiniz. Sadəcə Əsas ekranın yuxarı sağ tərəfindəki Accu-Chek SmartGuide tətbiqi işarəsinə toxunun. Predict tətbiqinə qayıtmaq üçün Accu-Chek SmartGuide tətbiqinin Əsas ekranından Predict tətbiqi işarəsinə də toxuna bilərsiniz.

Bunun işləmə qaydası barədə ətraflı məlumat üçün Accu-Chek SmartGuide tətbiqinin quraşdırılması bölməsinə nəzər salın.

**⚠ EHTİYAT TƏDBİRİ**

**Ciddi zədə riski**

Səhiyyə işçisi (HCP) ilə əvvəlcədən məsləhətləşmədən göstərilən məlumatlara əsasən insulin-karbohidrat amilləri, insulin sxemi və ya məşq intensivliyi kimi ümumi terapiyanızı dəyişdirməməyiniz tövsiyə olunur. Mütəmadi terapiyanız ilə bağlı suallarınız varsa, səhiyyə işçisi ilə əlaqə saxlayın.

Hər hansı gözlənilməz qlükoza dəyərinin müşahidə olunması halında səhiyyə işçisi ilə terapiya dəyişikliklərini müzakirə etməzdən əvvəl aşağıdakıları etməyiniz tövsiyə olunur:

- Bu tətbiqdə göstərilən qlükoza dəyərlərini Accu-Chek SmartGuide tətbiqi tərəfindən təmin edilən orijinal qlükoza dəyərləri ilə müqayisə edin.
- Hələ də şübhələriniz varsa, qan şəkərini ölçən cihaz ilə qan şəkəri testi aparın.
- Tətbiqlərdə göstərilən qlükoza səviyyələrindən hələ də əmin deyilsinizsə, səhiyyə işçisi ilə əlaqə saxlayın.

Predict tətbiqi CGM məlumatlarınız və daxil etdiyiniz qeydlərə (karbohidrat və insulin) əsasən proqnozlar hazırlayır. Qarşıdakı iki saat ərzində ata biləcəyiniz hər hansı addım (yemək, insulin qəbul etmək və məşq etmək kimi) proqnoza daxil edilmir. Nəzərə alın ki, Gecə üçün aşağı proqnoz funksiyasında bu, gecəni əhatə etdiyi üçün 2 saatdan çoxdur.

# 4 Tətbiqdən istifadə

## 4.1 Tətbiqdən istifadə üçün ilkin şərtlər

**Tələb edilən hesablar**

- Tətbiqi iOS cihazlarına endirmək üçün sizə Apple ID lazımdır.
- Tətbiqi Android cihazlarına endirmək üçün sizə Google hesabı lazımdır.
- Tətbiqi quraşdırmaq üçün sizə Accu-Chek hesabı lazımdır.
- Accu-Chek hesabı yaratmaq üçün sizə şəxsi e-poçt ünvanı lazımdır.

**Sistem tələbləri**

Tətbiqdən yalnız aşağıdakı sistem tələbləri qarşılanarsa, istifadə edə bilərsiniz:

- Accu-Chek SmartGuide CGM sensoru və tətbiqindən istifadə etməlisiniz.
- Qlükoza proqnozları və tətbiq bildirişləri almaq üçün İnternetə qoşulmuş olmalısınız.
- Tətbiqin iOS versiyası iOS 15.3 və ya daha yuxarı versiyanı tələb edir.
- Tətbiqin Android versiyası Android 11 və ya daha yuxarı versiyanı tələb edir.

Mobil cihazınızı əməliyyat sisteminin yeni versiyasına yeniləməzdən əvvəl tətbiqin yeni əməliyyat sistemi versiyası ilə uyğun olduğundan əmin olun. Şübhə yaranarsa, uyğun cihazların **https://tools.accu-chek.com/documents/dms/index.html** siyahısına nəzər salın. Hələ də yardıma ehtiyacınız varsa, müştəri dəstəyi ilə əlaqə saxlayın.

Yeniləmə sizin üçün əlçatan olan kimi tətbiq və/yaxud mobil cihazınızın əməliyyat sistemini yeniləməyiniz tövsiyə edilir.

**Şəbəkə tələbləri**

Tətbiq aşağıdakı icazələrin olmasını tələb edir:

- Accu-Chek hesabınız və Roche Diabetes Care bulud sistemi ilə məlumatların paylaşılması üçün təhlükəsiz internet bağlantısı. Mobil cihazınızı yalnız məlum, etibar edilən və təhlükəsiz Wi-Fi® və mobil şəbəkələrə qoşun.

**Brauzer tələbləri**

Accu-Chek hesabı yaratmaq və tətbiqə giriş etmək üçün sizə bir brauzer lazımdır. Hazır quraşdırılmış brauzeriniz yoxdursa, əvvəlcə onu endirməlisiniz.

Bu tətbiq Android cihazlarında aşağıdakı brauzerlər ilə uyğundur:

- Google Chrome
- Mozilla Firefox
- Mozilla Firefox Focus
- Microsoft Edge
- Samsung Internet

Bu tətbiq iOS cihazlarında Safari brauzeri ilə uyğundur.

## 4.2 Buraxılış qeydləri

Tətbiqlə bağlı ən son buraxılış qeydlərini əldə etmək üçün App Store və ya Google Play tətbiqlərinə keçid edin.

## 5.1 Tətbiqin quraşdırılması və silinməsi

### Tətbiqi quraşdırın

Əvvəlcə, tətbiqi mobil cihazınıza endirməlisiniz. Tətbiqi aşağıdakı rəqəmsal paylama platformalarından endirə bilərsiniz:

- iOS istifadəçiləri üçün App Store
- Android istifadəçiləri üçün Google Play

Tətbiqi endirin və onu mobil cihazınızda quraşdırın. Tətbiqləri mobil cihazınızda quraşdırmaq qaydası ilə bağlı məlumat mobil cihazınızın İstifadəçi təlimatında, eləcə də App Store və ya Google Play tətbiqlərində verilir.

### Tətbiqi silin

Tətbiqləri mobil cihazınızdan silmək qaydası ilə bağlı məlumat mobil cihazınızın İstifadəçi təlimatında, eləcə də App Store və ya Google Play tətbiqlərində verilir.

## 5.2 Predict tətbiqinə giriş etmək

Tətbiqi endirib quraşdırdıqdan sonra onu açıb tətbiqə giriş etməyə hazır olursunuz.

Tətbiqə giriş etmək üçün sizə brauzer lazımdır. Hazır quraşdırılmış brauzeriniz yoxdursa, əvvəlcə onu endirməlisiniz.

1. Tətbiq işarəsinə toxunun.
2. Giriş ekranları görünür. Ekranlara baxmaq üçün sola sürüşdürün.
3. Tətbiqə Accu-Chek hesabınız ilə olan eyni istifadəçi adı və şifrə ilə giriş edin.
4. Accu-Chek hesabınız yoxdur? **Hesab yaradın** seçiminə toxunun və ekrandakı göstərişlərə əməl edin.

## 5.3 Accu-Chek SmartGuide tətbiqinin quraşdırılması

Accu-Chek SmartGuide tətbiqi quraşdırılıbsa, Predict tətbiqi avtomatik olaraq CGM məlumatlarını qəbul edir.

Məlumatların ötürülməsi uğurlu olarsa, Əsas ekrana keçid edirsiniz. Tətbiqə aşağı naviqasiyadan giriş sahələri.

### Accu-Chek SmartGuide tətbiqi quraşdırılmayıb?

**Tətbiqə keçid edin** seçiminə toxunun və app store bölməsinə yönləndiriləcəksiniz. Əsas ekranın yuxarı sağ tərəfindəki Accu-Chek SmartGuide tətbiqi işarəsinə də toxuna bilərsiniz.

### Sensorunuz hələ də əlaqələndirilməyib?

- **Tətbiqə keçid edin** seçiminə toxunun və Accu-Chek SmartGuide tətbiqi açılacaq. Sensorunuzun əlaqələndirilməsi üçün təlimatlara əməl edin.
- Predict tətbiqi ən dəqiq proqnozu təmin etmək üçün müntəzəm olaraq yenilənən qlükoza dəyərlərinə malik olmalıdır. CGM məlumatlarınızı köçürmək üçün **İndi sinxronizasiya edin** seçiminə toxunun.

**Tətbiq quraşdırılıb və əlaqələndirilib, amma xəta baş verib?**

- Accu-Chek hesabınıza daxil olmalısınız.
  Çıxsanız, qlükoza dəyərləri və ya bildirişlərini qəbul etməyəcəksiniz. Həm Accu-Chek SmartGuide tətbiqi, həm də Predict tətbiqinə giriş etmək üçün eyni Accu-Chek hesabına giriş detallarından istifadə edirsiniz.
- Kifayət qədər məlumat yoxdur.
  CGM sensorunuz və Accu-Chek SmartGuide tətbiqinizin düzgün işləməsini yoxlayın. Ən azı 1 saatlıq fasiləsiz CGM məlumatlarının köçürülməsi tələb olunur ki, Predict tətbiqi sizə qarşıdakı 2 saat üçün ilkin qlükoza proqnozunu təmin edə bilsin.
- Sensorunuzu dəyişdirmək vaxtıdır.
  Accu-Chek SmartGuide tətbiqinə qayıdın və sensorunuzu dəyişdirmək üçün təlimatlara əməl edin.
- CGM məlumatları əlçatan deyil.
  Əsas ekrandakı qrafikdə məlumatlar görünmür. Nasazlıqların aradan qaldırılması üçün Accu-Chek SmartGuide tətbiqinə qayıdın. Əsas ekranın yuxarı sağ tərəfindəki Accu-Chek SmartGuide tətbiqi işarəsinə toxunun.

## 6.1 Ümumi tələblər

**Cihaza qulluq**

Tətbiqi çatlamış və ya zədələnmiş displeyə malik mobil cihazda istifadə etməyin. Displey çatlamış və ya zədələnmiş olarsa, göstərilən hər şeyi görməyə bilərsiniz. Tətbiqdən yalnız düzgün şəkildə işləyən mobil cihazda istifadə edin.

## 6.2 Girişin mühafizəsi

**Məlumatların mühafizəsi**

Tətbiq məlumatlarınızı naməlum giriş və ya yanlış istifadə hallarından mühafizə edin. Mobil cihazınız və ya əməliyyat sisteminizdə əlçatan olan şifrə mühafizəsi kimi təhlükəsizlik funksiyalarından istifadə edin.

Bütün şəkərli diabet məlumatlarınız da Roche Diabetes Care bulud xidmətindəki Accu-Chek hesabınızda şifrələnir və mühafizə olunur.

Roche-nin şəxsi məlumatlarınızı necə toplaması və istifadə etməsi barədə məlumat üçün:

- **Menyu > Hesab > Məxfilik parametrləri** seçiminə toxunun.
- **Menyu > Hesab > Hesabı idarə edin** seçiminə toxunun.

**Mobil cihazın mühafizəsi**

Tətbiqi üçüncü tərəflərin girişindən qoruyun. Yalnız etibar etdiyiniz xəstə baxıcılarının girişinə icazə verin.

- Mobil cihazınızı uşaqlar da daxil olmaqla başqalarına verməyin.
- Mobil cihazınızın təhlükəsizlik parametrlərində ekran kilidi təyin edin.
- Müəyyən müddət fəaliyyətsizlikdən sonra mobil cihazınızı avtomatik şəkildə kilidləmək üçün ekran kilidini konfiqurasiya edin.

**Hesabın mühafizə olunması**

Accu-Chek hesabı məlumatlarınızı məxfi saxlayın. Xəstə baxıcısı olmayan insanlarla hesabınızı paylaşmayın.

Mobil cihazınızı proqram təminatınıza edilmiş dəyişikliklərdən qoruyun. Tətbiqlərin (App Store və ya Google Play-dən) quraşdırılması üçün şifrə tələb edildiyindən əmin olun.

Apple və ya Google hesabınızın şifrə parametrlərini dəyişdirməklə bağlı məlumat üçün endirmə platformanız üzrə təlimatlara nəzər salın.

Accu-Chek hesabınız üzrə şifrə parametrlərini dəyişdirmək üçün **Menyu** > **Hesab** > **Hesabı idarə edin** bölməsinə keçid edin.

Mobil cihazınızın konfiqurasiya edilməsi barədə ətraflı məlumat əldə etmək üçün Accu-Chek SmartGuide tətbiqinin İstifadəçi təlimatındakı Mobil cihazınızın konfiqurasiya edilməsi fəslinə istinad edin.




Əsas ekran tətbiqin mərkəzidir və 5 bölməyə bölünmüşdür. Bu defolt ekran aşağıdakıları göstərir:

1 Accu-Chek SmartGuide tətbiqi işarəsi: Accu-Chek SmartGuide tətbiqinin Əsas ekranına keçid etmək üçün bu işarəyə toxunun. Predict tətbiqiniz açıq qalır.

2 Qrafikin qlükoza proqnozunuzu göstərmə qaydası barədə ətraflı məlumat əldə etmək üçün ⓘ işarəsinə toxunun.

3 Qrafik son saat ərzində indi olduğu kimi qlükoza səviyyələrinizi və onların qarşıdakı 2 saat ərzində proqnozlaşdırılan diapazonunu göstərir. Proqnozlaşdırılan diapazondakı qırıq xətt proqnozlaşdırılan orta qlükoza dəyərinizi göstərir.
Proqnozlaşdırılan qlükoza diapazonunuzun dəqiqliyi uzanan şaquli xətlərlə göstərildiyi kimi vaxt keçdikcə bir az da azalır.
Proqnozla bağlı xəta mesajları alsanız, onları qrafik sahəsində görə biləcəksiniz.

4 Müvafiq ölçü vahidi ilə cari qlükoza səviyyəsi.

5 Mesaj sahəsi: Gecə aşağı göstərici və 30 dəqiqə ərzində aşağı qlükoza səviyyəsi ehtimalı kimi vacib məlumatlar burada, düz qrafikin altında görünür.
Tətbiq qlükoza səviyyələrinizdə hər hansı nümunə aşkar edərsə, nümunələr burada da görünür.

## 7.1 Naviqasiya elementləri

Aşağıdakı naviqasiya elementləri ekranın yuxarı hissəsində görünür.

- Əvvəlki ekrana qayıtmaq üçün < seçiminə toxunun.
- Ekranı bağlamaq üçün X seçiminə toxunun.

Aşağıdakı naviqasiya elementləri ekranın aşağı hissəsində görünür.




Baxdığınız tətbiq sahəsini vurğulamaq üçün işarələr mavi rəngdə qeyd edilir.

1 **Əsas səhifə** işarəsi: Əsas ekrana giriş üçün toxunun.

2 **Nümunələr** işarəsi: Qlükoza nümunələri ekranına giriş üçün toxunun.

3 **Menyu** işarəsi: Əlavə menyu seçimlərini göstərmək üçün toxunun. Seçimlərə Qoşulmalar, Hesab, Bildiriş parametrləri, Hesabatı ixrac edin, İstifadəçi təlimatı, Məhsul barədə məlumat və Bizimlə əlaqə daxildir.

Tətbiq növbəti 2 saat ərzində qlükoza səviyyələrinizin potensial istiqamətini göstərir. Proqnoz əvvəlki CGM dəyərlərinizə, eləcə də Accu-Chek SmartGuide tətbiqinin qeyd kitabçasındakı karbohidrat və insulin qeydlərinizə əsaslanır.

Qlükoza proqnozu Əsas ekrandakı qrafikdə o halda görünür ki, ən azı 1 saatlıq fasiləsiz CGM məlumatları tətbiqə uğurla köçürülmüş olsun.

Qrafik son saat ərzində indi olduğu kimi qlükoza səviyyələrinizi və onların qarşıdakı 2 saat ərzində proqnozlaşdırılan diapazonunu göstərir. Proqnozlaşdırılan diapazondakı qırıq xətt proqnozlaşdırılan orta qlükoza dəyərinizi göstərir.
Proqnozlaşdırılan qlükoza diapazonunuzun dəqiqliyi uzanan şaquli xətlərlə göstərildiyi kimi vaxt keçdikcə bir az da azalır.

Yadda saxlayın ki, göstərilən gələcək qlükoza dəyərləri faktiki dəyərlərdən fərqli ola biləcək proqnozlardır və Accu-Chek SmartGuide tətbiqindəki Dəyişiklik rejimi və ya Terapiya rejiminin cari statusu ona təsir etmir. Dəyişiklik rejimi Accu-Chek SmartGuide tətbiqində göstərilən dəyərlərin yalnız dəyişiklikləri görmək üçün və ümumi istinad kimi istifadə edilməli olduğunu göstərir. Terapiya qərarları vermək üçün yalnız Terapiya rejimində göstərilən dəyərlərdən istifadə edilə bilər.

Qrafikdə göstərilən diapazon 0 ilə 300 mq/dL (0–16,7 mmol/L) arasında dəyişir. Dəyər göstəriciniz 300 mq/dL (16,7 mmol/L) göstəricisindən yuxarıdırsa, o, yuxarı işarə edən üçbucaq ilə göstəriləcək və əgər dəyər göstəriciniz 400 mq/dL (22 mmol/L) həddindən yuxarıdırsa, tətbiqdə rəqəm dəyəri əvəzinə HI görünür. Dəyər göstəriciniz 40 mq/dL (2,2 mmol/L) göstəricisindən aşağıdırsa, o, aşağı işarə edən üçbucaq ilə göstəriləcək və tətbiqdə rəqəm dəyəri əvəzinə LO görünür.

Proqnozlaşdırılan qlükoza səviyyəniz aşağı istiqamətə yönəlirsə və Aşağı qlükoza proqnozu kartı görünürsə, yalnız qarşıdakı 30 dəqiqəyə qədər olan qlükoza dəyərləri qrafikdə görünür. Proqnozlaşdırılan qlükoza səviyyəniz 30 dəqiqə ərzində aşağı səviyyəyə çatmazsa, onda qrafikdə heç bir proqnoz dəyəri göstərilmir və yalnız Aşağı qlükoza proqnozu kartı görünür.

Proqnozunuza nəzər salan zaman aşağıdakıları yadda saxlayın:

- Predict tətbiqi CGM məlumatlarınız və daxil etdiyiniz karbohidrat və insulin göstəricilərinizə əsasən proqnozlar hazırlayır. Qarşıdakı iki saat ərzində ata biləcəyiniz hər hansı addım (yemək, insulin qəbul etmək və məşq etmək kimi) proqnoza daxil edilmir.
- 2 saatlıq proqnoz yalnız proqnoz 45 dəqiqədən daha uzun müddətə olduğu hallarda və atmalı ola biləcəyiniz gələcək addımlardan (qlükoza səviyyənizi daha tez-tez yoxlamaq, insulin inyeksiyaları hazırlamaq və ya hazır karbohidratlara malik olmaq) xəbərdar olmağınız üçün məlumat məqsədi daşıyır. Qarşıdakı 45 dəqiqə ərzində yüksək və aşağı qlükoza proqnozları halında atmalı olacağınız addımlara nəzər salmalısınız.

## 8.1 Qlükoza proqnozu ilə bağlı xəta mesajları

Əsas ekranınızda heç bir qlükoza proqnozu olmadığı zaman aşağıdakı xəta mesajlarından birini alacaqsınız.

| **Xəta mesajı** | **Addım** |
|---|---|
| Qlükoza proqnozu verə bilməyimiz üçün bizə ən azı 1 saatlıq CGM məlumatları lazımdır. | Qlükoza proqnozunuzun görünməsi üçün 1 saat gözləyin. |

| Xəta mesajı | Addım |
|---|---|
| 70 mq/dL (3,9 mmol/L) səviyyəsindən aşağı göstəriciyə malik olduğunuz zaman qlükoza proqnozu verməyimiz mümkün deyil. | Qlükoza səviyyəniz aşağı olduğu üçün proqnoz təmin edə bilmirik. Qlükoza səviyyənizi 70 mq/dL (3,9 mmol/L) həddindən yuxarı qaldırmaq üçün səhiyyə işçisi tərəfindən tövsiyə edildiyi kimi şəkərli bir şey yeyin və ya için. (Bu dəyər yalnız nümunə üçündür. Aşağı qlükoza limitiniz fərqlənə bilər.) |
| Qlükoza proqnozunuzu təmin edə bilmirik. Daha sonra yenidən cəhd edin. | Qlükoza səviyyənizi proqnozlaşdıra bilmədik. Daha sonra yenidən cəhd edin. Xəta mesajı almağa davam edirsinizsə, müştəri dəstəyi ilə əlaqə saxlayın. |

## 8.2 Aşağı qlükoza proqnozu

Bu tətbiq 30 dəqiqə ərzində aşağı qlükoza səviyyəsinə malik olacağınızı aşkar etdiyi zaman Əsas ekranda aşağı qlükoza proqnozu kartı görünür. Aşağı qlükoza qarşıdakı 30 dəqiqə ərzində istənilən vaxt baş verə bilər.

Səviyyənin aşağı düşməsi o deməkdir ki, qlükoza dəyəriniz Accu-Chek SmartGuide tətbiqində qlükoza alarmlarınız üçün təyin etdiyiniz aşağı qlükoza limitindən aşağı düşə bilər. Qlükoza limitlərinizi təyin etmək barədə ətraflı məlumat üçün Accu-Chek SmartGuide tətbiqinin İstifadəçi təlimatındakı Başlamaq fəslinə istinad edin.

30 dəqiqə ərzində səviyyənin aşağı düşməsi ehtimalı yüksək olarsa və bildirişlər yandırılmış vəziyyətdə olarsa, *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişi mobil cihazınızın konfiqurasiya qaydasından asılı olaraq ya Kilid ekranınızda, ya da ekranın yuxarı hissəsindən tutub aşağı sürüşdürdüyünüz zaman görünür.

Aşağı qlükoza proqnozu ekranında əlavə məlumatlar əldə etmək üçün *Tezliklə aşağı qlükoza səviyyəsi müşahidə olunacaq!* bildirişinə toxunun. Tövsiyələri oxuyun və atılacaq növbəti addıma qərar verin.

## 8.3 Aşağı qlükoza proqnozu ilə bağlı istisnalar

Aşağı qlükoza proqnozu funksiyası aşağıdakı istisnalar olmaqla həftənin 7 günü, günün 24 saatı aktiv olur:

- Aşağı qlükoza alarmınız Accu-Chek SmartGuide tətbiqində 60 mq/dL (3,3 mmol/L) həddindən aşağı və ya 100 mq/dL (5,5 mmol/L) həddindən yuxarı təyin edilir. Bu bildiriş aşağı qlükoza alarmınız 100 mq/dL (5,5 mmol/L) həddindən yuxarıya təyin edildiyi zaman işləmir.
- Sonuncu karbohidrat qəbulunuzdan bəri 20 dəqiqə vaxt keçmişdir.
- Ən son proqnoz və son bildiriş göndəriləndən bəri 30 dəqiqə vaxt keçmişdir.
- Qlükoza dəyəriniz artıq Accu-Chek SmartGuide tətbiqində qlükoza alarmlarınız üçün təyin etdiyiniz aşağı qlükoza limitindən aşağıdır. Qlükoza limitlərinizi təyin etmək barədə ətraflı məlumat üçün Accu-Chek SmartGuide tətbiqinin İstifadəçi təlimatındakı Başlamaq fəslinə istinad edin.

# 8 Qlükoza proqnozu

Əsas ekrandakı Aşağı qlükoza proqnozu kartınız 15 dəqiqədən sonra yox olur.

# Gecə üçün aşağı proqnoz

Gecə üçün aşağı proqnoz funksiyası gecə yatmazdan əvvəl gecə zamanı aşağı qlükoza səviyyəsi ehtimalınız barədə sizə məlumat verir və aşağı səviyyə riskinin baş vermə ehtimalının daha çox olduğu vaxt dövrü barədə informasiya təmin edir. Proqnoz saat 21:00 ilə 02:00 arasında əlçatan olur.

Qlükoza səviyyəsinin aşağı düşməsi dedikdə qlükoza dəyərinizin 70 mq/dL (3,9 mmol/L) göstəricisindən aşağı düşə biləcəyi nəzərdə tutulur. Gecə üçün aşağı proqnoz funksiyası Accu-Chek SmartGuide tətbiqindən asılı olmayan 70 mq/dL (3,9 mmol/L) sabit aşağı həddi ilə işləyir.

Gecə dedikdə proqnozun hesablandığı vaxtdan sonra sayılan 7 saatlıq vaxt dövrü nəzərdə tutulur.

Gecə üçün aşağı proqnoz funksiyasını təyin edə və 21:00 ilə 02:00 arasında hər hansı vaxt dövrü üçün yeni hesablama sorğusunu manual olaraq göndərə bilərsiniz. Siz həm də seçilmiş vaxtlarda yüksək risk (normal risk səviyyənizdən əhəmiyyətli dərəcədə yuxarı) barədə də bildiriş ala bilərsiniz.

Gecə ərzində aşağı qlükoza səviyyəsinin olması ilə bağlı yüksək ehtimal olarsa və bildirişlər yanılı vəziyyətdə olarsa, *Gecə üçün aşağı proqnoz verildi!* bildirişi mobil cihazınızın Kilid ekranında görünəcək. Gecə üçün aşağı proqnoz kartına bu tətbiqin Əsas ekranındakı qrafikin aşağısında baxmaq olar. Bu bildirişi idarə etmək üçün **Menyu > Bildiriş parametrləri** bölməsinə keçid edin.

Gecə üçün aşağı proqnoz ekranındakı qrafik proqnozunu görmək üçün bildiriş və ya karta toxunun.

Gecə ərzində aşağı qlükoza səviyyəsinin olma ehtimalı 3 fərqli risk səviyyəsinə bölünür, hər səviyyə üzrə fərqli rəngdən istifadə edilir:

- Normal – 30%-dən az (yaşıl)
- Yüksək – 30–60% arasında (sarı)
- Çox yüksək – 60%-dən yuxarı (qırmızı)



Gecə zamanı aşağı qlükoza səviyyəsinin olması ehtimalının normal, yüksək və ya çox yüksək olmasından asılı olmayaraq atacağınız addımlara nəzər salın.

Normal risk də risk hesab edilir, buna görə də lazımi addımlara nəzər salınmalıdır.

Gecə üçün aşağı proqnoz ekranı həm də gecə zamanı aşağı qlükoza səviyyəsi olması ilə bağlı yüksək və ya çox yüksək risk olduğu zaman aşağıdakı tövsiyələri göstərir:

- Karbohidrat tərkibli qəlyanaltıları çarpayınızın yanında əliniz çatan yerdə saxlayın.
- Gecə daha az bazal insulin vahidi vurmağı nəzərdən keçirin.
- Protein və yağlarla zəngin olan qida qəbul edin.

Hər 20 dəqiqədə bir dəfə aşağı qlükoza olması ehtimalınızın hesablanması üçün manual olaraq sorğu göndərə bilərsiniz, bir şərtlə ki, bu, aşağıdakı istisnalar ilə son yemək və/yaxud insulin inyeksiyanızdan 20 dəqiqə sonra olsun.

- Qlükoza dəyəriniz artıq 70 mq/dL (3,9 mmol/L) göstəricisindən aşağı və ya aşağı qlükoza limitinizdən (70 mq/dL (3,9 mmol/L) həddindən yuxarı olarsa) aşağıdır.
- Qlükoza proqnozunuz və ya aşağı qlükoza proqnozu kartınız göstəricinizin 70 mq/dL (3,9 mmol/L) həddindən aşağı düşmək üzrə olduğunu göstərir. Qlükoza dəyəriniz burada göstərilən qlükoza dəyərindən fərqlənə bilər, çünki bu dəyər Accu-Chek SmartGuide tətbiqində qlükoza alarmlarınız üçün təyin etdiyiniz aşağı qlükoza limitinə əsaslanır.

## 9.1 Gecə üçün aşağı proqnozla bağlı xəta mesajları

Gecə üçün aşağı proqnozunuz təmin edilə bilməyəndə səbəbini və atıla biləcək mümkün addımları daha yaxşı anlamaq üçün aşağıdakıları oxuyun. Qlükoza dəyərləriniz burada göstərilənlərdən fərqlənə bilər.

| Xəta mesajı | Addım |
|---|---|
| Xəta baş verdi | Xidmətimiz əlçatan olmaya bilər. **Yenidən cəhd edin** seçimi işə yaramırsa, bir neçə dəqiqə gözləyin.<br>Xəta mesajı almağa davam edirsinizsə, müştəri dəstəyi ilə əlaqə saxlayın. |
| Hələ əlçatan deyil | Gecə qlükoza səviyyənizin aşağı olub-olmayacağını hesablamaq üçün çox tezdir. Saat 21:00 ilə 02:00 arasında geri qayıdıb yoxlamalısınız. Gecə üçün aşağı proqnoz funksiyası yalnız bu vaxt dövründə işləyir. |
| Kifayət qədər məlumat yoxdur | Ən azı 1 gün CGM sensorunu taxdığınızdan əmin olun. Gecə ərzində aşağı qlükoza səviyyəsinə malik olma ehtimalınızı proqnozlaşdırmaq üçün bizə ən azı 1 günlük məlumatlar lazımdır. |
| Karbohidrat və ya insulin qəbulu aşkar edildi | Accu-Chek SmartGuide tətbiqinin qeyd kitabçasında karbohidrat və ya insulin qeydi daxil edilərsə, onda bu tətbiqə yeni qeydi təhlil etmək və gecə ərzində aşağı qlükoza ehtimalını yenidən hesablamaq üçün ən azı 20 dəqiqə vaxt lazımdır. |

| Xəta mesajı | Addım |
|---|---|
| Qlükoza səviyyəniz aşağı düşmək üzrədir | Qlükoza proqnozunuz və ya aşağı qlükoza proqnozu kartınız qlükoza dəyərinizin 70 mq/dL (3,9 mmol/L) həddindən aşağı düşəcəyinin proqnozlaşdırıldığını göstərirsə, bu mesaj görünür.<br>(Bu dəyər yalnız nümunə üçündür. Aşağı qlükoza limitiniz fərqlənə bilər.) |
| Göstəriciniz 70 mq/dL (3,9 mmol/L) həddindən aşağıdır | Qlükoza səviyyəniz artıq aşağı olduğu zaman bu tətbiq aşağı qlükoza səviyyəsi proqnozlaşdıra bilməz. Səhiyyə işçisinin tövsiyə etdiyi kimi şəkərli bir şey yeyin və ya için.<br>(Bu dəyər yalnız nümunə üçündür. Aşağı qlükoza limitiniz fərqlənə bilər.) |
| Xəta baş verdi | Risk səviyyənizi hesablamağa çalışdığınız zaman qlükoza səviyyənizi proqnozlaşdıra bilmədik. Daha sonra yenidən cəhd edin. |
| Onlaynsınız? | Bu tətbiqdən istifadə etmək üçün mobil cihazınızın internetə qoşulduğundan əmin olun. |

## 9.2 Gecə üçün aşağı proqnozun aktivləşdirilməsi

1. Gecə üçün aşağı proqnoz kartındakı **Aktivləşdirin** seçiminə toxunun.
2. Bildiriş keçiricisini yandırmaq üçün **Növbəti** seçiminə toxunun.
3. Vaxtı daxil edin və **Tamamlandı** seçiminə toxunun.
   Günün son yeməyi və insulin qəbulundan ən azı 30 dəqiqə sonraya, yatmazdan isə əvvələ aid bir vaxt seçin.

✓ Təsdiq ekranı görünür. **OK** seçiminə toxunun.

Bu funksiya gün və ya həftə (B.e.–B.) ərzində baş verən təkrarlanan qlikemik hadisələri müəyyən edir.

Hər gün son 24 saata aid aşkar edilmiş nümunələriniz Əsas ekrandakı qrafikin altında görünür.

Həm normal, həm də normadan kənar nümunələr vizuallaşdırılır. Normadan kənar nümunələrinizə baxmaq gələcəkdə bu cür halların qarşısını almaq üçün effektiv addımlar atmağınıza imkan verir.

Nümunələr çox aşağı qlükoza və ya aşağı qlükoza nümunəsi kimi ən yüksək sağlamlıq riskləri yuxarıda birinci sırada olmaqla ard-arda görünür. Aşkar edilmiş nümunələrinizin hər hansı biri ilə bağlı xatırlatmalar yarada bilərsiniz.

Hər bazar ertəsi günü tətbiq əvvəlki həftə ərzində aşkar edilmiş bütün nümunələrin xülasəsini göstərir. Bu xülasə hazır olan zaman bildiriş almaq üçün Həftəlik xülasə üçün bildirişin aktivləşdirilməsi bölməsinə nəzər salın.

Aşağıdakıları etmək üçün aşağı naviqasiyadan Nümunələr işarəsinə toxunun:

**Qlükoza nümunələri ekranındakı Cari nümunələr panelindən**

- Aşkar edilmiş nümunələrə və xatırlatmalar yaradılmış nümunələrə nəzər salın.
- Accu-Chek SmartGuide tətbiqinin qeyd kitabçasındakı hər hansı əlaqədar karbohidrat, insulin və qan şəkəri nəticəsi qeydi də daxil olmaqla daha çox informasiyaya baxmaq üçün aşkar edilmiş hər hansı bir nümunəyə toxunun. Hər hansı bir gün üzrə detallar və qeyd kitabçası informasiyasına baxmaq üçün nümunədə həmin günə toxunun.
- Keçən həftəyə aid xülasə hazır olanda bildiriş almaq üçün onu quraşdırın.

**Qlükoza nümunələri ekranındakı Keçmiş nümunələr panelindən**

- Artıq aşkar olunmayan, əvvəlcə son ay göstərilməklə sıralanan həmin nümunələrə nəzər salın. 2 həftədən daha köhnə keçmiş nümunələr 6 aya qədər ayrı saxlanılır.

Qlükoza nümunələri ekranına ilk dəfə baxdığınız zaman ümumi baxış görünür. Funksiyanın işləmə qaydasını daha yaxşı anlamaq üçün ekranları oxuyun.

## 10.1 Qlükoza nümunələrinin növləri

Bu fəsildəki cədvəllər mümkün nümunələri və CGM məlumatlarınızdan aşkar edilə biləcək əlaqədar vaxt bloklarını göstərir.

Birinci cədvəl vaxt bloklarını, eləcə də onların başlama və bitmə vaxtlarını göstərir.

| **Vaxt bloku** | **Başlama vaxtı** | **Bitmə vaxtı** | **Saat qurşağı** |
|---|---|---|---|
| Gecə | 00:00 | 06:00 | Yerli vaxt |
| Səhər | 06:00 | 10:00 | Yerli vaxt |
| Gün ərzində | 10:00 | 20:00 | Yerli vaxt |
| Axşam | 20:00 | 00:00 | Yerli vaxt |
| Bütün gün | 00:00 | 00:00 | Yerli vaxt |

# 10 Qlükoza nümunələri

Nümunə üçün göstərilən vaxt möhürü həmin vaxt möhürü qeydə alınarkən olan yerli vaxtı nümayiş etdirir. Başqa saat qurşağına keçid etsəniz, əvvəlki vaxt möhürləri yenilənmir.

Aşağıdakı cədvəl bu tətbiqin sizin məlumatlarınıza əsasən aşkar edə biləcəyi mümkün nümunələri göstərir.

Bu tətbiqin defolt sabit qlükoza dəyərləri burada normadan kənar nümunəni aktivləşdirən hədlər kimi istifadə edilir. Norma daxilində və yeməkdən sonra normadankənar nümunələr Accu-Chek SmartGuide tətbiqində müəyyən etdiyiniz hədəf aralığına əsasən aktivləşir.

Bu tətbiqdə səhər yeməyi və ya hər hansı başqa yeməklə əlaqəli nümunənin aşkarlanmasından yararlanmaq üçün Accu-Chek SmartGuide tətbiqində yeməklərinizi daim qeydə almalısınız.

| **Nümunə işarəsi** | **Mümkün nümunələr** | **Təsvir** |
|---|---|---|
|  | Aşağı (səhər, gün ərzində, axşam, gecə) | 70 mq/dL (3,9 mmol/L) həddindən aşağı qlükoza |
|  | Çox aşağı (səhər, gün ərzində, axşam, gecə) | 54 mq/dL (3,0 mmol/L) həddindən aşağı qlükoza |
|  | Uzun müddət aşağı (səhər, gün ərzində, axşam, gecə) | 2 saatdan çox müddət ərzində 70 mq/dL (3,9 mmol/L) həddindən aşağı qlükoza |
|  | Gün ərzində bir neçə dəfə aşağı | Eyni gündə bir neçə dəfə 70 mq/dL (3,9 mmol/L) həddindən aşağı qlükoza |
|  | Çox yüksək (səhər, gün ərzində, axşam, gecə) | 250 mq/dL (13,9 mmol/L) həddindən yuxarı qlükoza |
|  | Səhər yeməyindən əvvəl yüksək | 130 mq/dL (7,2 mmol/L) həddindən yuxarı qlükoza<br><br>Bu dəyər yalnız nümunə üçündür. Qlükoza dəyəriniz Accu-Chek SmartGuide tətbiqində müəyyən etdiyiniz aşağı hədəf dəyərdən asılıdır.<br><br>Vaxt dövrü: 06:00–10:00 |
|  | Yüksək (səhər, gün ərzində, axşam, gecə) | 180 mq/dL (10,0 mmol/L) həddindən yuxarı qlükoza |
|  | Yeməkdən sonra normadan kənar | Yemək yedikdən sonra qlükoza səviyyəniz hədəf aralığınızdan kənarda olmuşdur |

| Nümunə işarəsi | Mümkün nümunələr | Təsvir |
| --- | --- | --- |
|  | Səhər yeməyindən əvvəl normal | Yemək yeməzdən əvvəl qlükoza səviyyəniz hədəf aralığınız daxilində olmuşdur<br><br>Vaxt dövrü: 06:00–10:00 |
|  | Normal | Qlükoza səviyyəniz hədəf aralığınız daxilindədir |
|  | Ardıcıl bir neçə gün normal | 3 və ya daha çox ardıcıl gün ərzində qlükoza normada olmuşdur |
|  | Yeməkdən sonra normal | Yemək yedikdən sonra qlükoza səviyyəniz hədəf aralığınız daxilində olmuşdur |
|  | Yüksək CGM dəyişkənliyi | Qlükoza səviyyələri gün ərzində oynayır. |
|  | Aşağı qlükoza səviyyəsinin həddindən artıq qaldırılması | 3 saatlıq müddət ərzində qlükoza səviyyəsi 70 mq/dL (3,9 mmol/L) göstəricisindən aşağı düşərək, 250 mq/dL (13,9 mmol/L) göstəricisindən isə yuxarı qalxaraq dəyişkənlik göstərmişdir. |
|  | Yüksək qlükoza səviyyəsinin həddindən artıq salınması | 3 saatlıq müddət ərzində qlükoza səviyyəsi 250 mq/dL (13,9 mmol/L) göstəricisindən yuxarı qalxaraq, 70 mq/dL (3,9 mmol/L) göstəricisindən isə aşağı düşərək dəyişkənlik göstərmişdir. |

## 10.2 Aşağı və yüksək qlükoza nümunələrinin mümkün səbəbləri

Aşağıdakı cədvəl 1-ci və ya 2-ci tip şəkərli diabetdən əziyyət çəkən şəkərli diabet xəstəsi üçün aşağı və yüksək qlükoza nümunələrinin mümkün səbəblərini özündə birləşdirir. Nəzərə alın ki, səbəblər bütün nümunələri və şəkərli diabet tiplərini əhatə etməyə bilər. Tətbiqdə ətraflı məlumat üçün hər bir səbəbə toxunun.

| İşarə | Səbəb |
| --- | --- |
|  | İnsulin dozajlaması |

| İşarə | Səbəb |
|---|---|
|  | İnyeksiya yerləri |
|  | Yemək və içkilər |
|  | Fiziki fəaliyyət |
|  | Hormonal təsirlər |
| | Hormonlar və bioloji ritmlər |
|  | İstilik |
|  | Stres, yuxu və xəstəlik |

## 10.3 Qlükoza nümunəsi xatırlatmasının təyin edilməsi

Nümunə xatırlatmasının təyin edilməsi atmalı olduğunuz addımı müəyyən etməyinizə imkan verir.

Həm tətbiqin topladığı məlumatlardan, həm də sizin öz həyat tərziniz və davranışlarınız ilə bağlı biliklərdən istifadə etməklə bunları daha yaxşı qlikemik balansın əldə edilməsi və kritik situasiyalardan uzaq durmaq üçün tətbiq edə bilərsiniz.

İstənilən vaxt fərdi nümunəyə keçid edə və oradan xatırlatmanı söndürə bilərsiniz.

Nümunə müəyyən edildikdən sonra tətbiq onu avtomatik olaraq Keçmiş nümunələr panelinə köçürür. Eyni zamanda nümunə ilə bağlı xatırlatma təyin edilərsə, tətbiq xatırlatmanı silir.

1. Aşağı naviqasiyadan **Nümunələr** seçiminə toxunun.
2. Xatırlatma almaq istədiyiniz nümunəyə toxunun.
3. **Xatırlatma təyin edin** seçiminə toxunun.
4. Xatırlatma keçiricisini yandırın.
5. Gün və saatı, eləcə də nümunə xatırlatması əldə etmək istədiyiniz vaxt tezliklərini seçin. **Yadda saxlayın** seçiminə toxunun.
6. **Tamamlandı** seçiminə toxunun.

✓ Təsdiq ekranı görünür. **Ok** seçiminə toxunun.
Xatırlamaq istədiyiniz hər bir ayrıca nümunə üçün eyni addımları təkrarlayın.

## 10.4 Qeydin əlavə edilməsi

Yalnız hər hansı nümunə baş verdiyi gün qeyd əlavə edə bilərsiniz. Bu qeyd həm də sizin nümunə hesabatınızda görünəcək.

1. Aşağı naviqasiyadan **Nümunələr** seçiminə toxunun.
2. Qeyd əlavə etmək istədiyiniz nümunəyə toxunun.
3. Nümunənin baş verdiyi günə toxunun.
4. **Əlavə edin** seçiminə toxunun və qısa bir təsvir daxil edin.

## 10.5 Həftəlik xülasə üçün bildirişin aktivləşdirilməsi

Əvvəlki həftəyə aid nümunə xülasəsi hər bazar ertəsi günü yaradılır. Bu xülasə hazır olan zaman bildiriş almaq üçün:

1. Aşağı naviqasiyadan **Nümunələr** seçiminə toxunun.
2. Həftəlik xülasə kartındakı **Aktivləşdirin** seçiminə toxunun.
3. Bildiriş keçiricisini yandırın.
4. **Növbəti** seçiminə toxunun.
5. **Aşağıdakı vaxtda mənə bildiriş göndərilsin** seçiminə toxunun və bildirişinizi almaq istədiyiniz vaxtı redaktə edin.
6. **Növbəti** seçiminə toxunun.

✓ Təsdiq ekranı görünür. **Ok** seçiminə toxunun.

**Menyu > Bildiriş parametrləri** bölməsindən istifadə edərək seçimlərinizi dəyişdirə bilərsiniz.

# 11 Hesabatı ixrac edin

İlk dəfə hesabatı ixrac etdiyiniz zaman ekranda görünən funksiyaya ümumi baxış ilə tanış olun. İstənilən vaxt ümumi baxışa istinad etmək üçün ⓘ işarəsinə toxunun.

Hesabatı birbaşa bu tətbiqdən ixrac edə bilərsiniz. Siz Ambulator qlükoza profilinizi (AGP) və/yaxud ikihəftəlik müddət üçün nümunələrinizi daxil etmək imkanına maliksiniz. Səhiyyə işçisi ilə PDF hesabatınızı paylaşmaq asandır. Şəxsi məlumatlarınızı paylaşmaq məqsədilə istifadə etdiyiniz e-poçt kimi üsulların məlumatlarınızı təhlükəsiz saxlamaq üçün mühafizəyə malik olmasından əmin olun.

**Hesabatın ixrac edilməsi**

1. **Menyu > Hesabatı ixrac edin** seçiminə toxunun.
2. Hesabatınız üçün ikihəftəlik müddəti seçin.
3. Hesabatınız üçün məzmunu seçin.
4. **Hesabat yaradın** seçiminə toxunun.

✓ Hesabatınız görünür.
Hesabatı paylaşa və ya başqa vaxt nəzərdən keçirmək üçün yadda saxlaya bilərsiniz. Yadda saxlamazdan əvvəl yaradılmış hesabatınızı bağlasanız, onu yenidən yaradın və istədiyiniz yerdə yadda saxlayın.

# 12 Tətbiq parametrləri

Tətbiq parametrlərinə baxmaq və dəyişikliklər etmək üçün aşağı naviqasiyadan **Menyu** seçiminə toxunun. Parametrlərə və digər təfərrüatlara müntəzəm olaraq nəzər salın. Ən yeni informasiya tətbiqdən istifadəniz zamanı ən yaxşı təcrübədən yararlanmağınıza kömək edəcək.




### Bildiriş parametrlərinin redaktə edilməsi

1. **Menyu** > **Bildiriş parametrləri** seçiminə toxunun.
2. Lazım gələndə bildiriş keçiricisini yandırın və ya söndürün.
3. Həftəlik nümunə xülasəniz üçün bildirişinizi aktivləşdirsəniz, müvafiq hallarda vaxtı tənzimləyin.
4. **Yadda saxlayın** seçiminə toxunun.

### Hesab detallarını redaktə edin

1. **Menyu** > **Hesab** > **Hesabı idarə edin** seçiminə toxunun.
2. Lazımı məlumatları əlavə edin və ya yeniləyin. **Yadda saxlayın** seçiminə toxunun.

### Məxfilik parametrləri

1. **Menyu** > **Hesab** > **Məxfilik parametrləri** seçiminə toxunun.

### Məhsul barədə məlumat ekranı

1. **Menyu** > **Məhsul barədə məlumat** seçiminə toxunun.

### Çıxın

1. **Menyu** > **Hesab** > **Çıxın** seçiminə toxunun.

### Hesabı silin

1. **Menyu** > **Hesab** > **Hesabım silinsin** seçiminə toxunun.
   Bu addımı atmaq istədiyinizdən əmin olun. Accu-Chek hesabınızı silsəniz, bütün məlumatlar itəcək. Sonra məlumatlarınızı geri qaytara bilməyəcəksiniz.
2. **Tamamlandı** seçiminə toxunun.

# 13 Nasazlıqların aradan qaldırılması

## 13.1 Nasazlıqların aradan qaldırılması

Ətraflı məlumat üçün aşağıdakı linklərə klikləyin.

- Qlükoza proqnozu ilə bağlı xəta mesajları
- Aşağı qlükoza proqnozu ilə bağlı istisnalar
- Gecə üçün aşağı proqnozla bağlı xəta mesajları
- Aşağı və yüksək qlükoza nümunələrinin mümkün səbəbləri

## 13.2 Bildirişlərə ümumi baxış

Tətbiq sizinlə fərqli üsullarla kommunikasiya qurur.

Bəzi bildirişlər yalnız məlumat xarakteri daşıyır. Bildirişi oxuyun və onu bağlamaq üçün ✕ işarəsinə toxunun.

Digər bildirişlər öz seçiminizə əsasən ata biləcəyiniz addımları təmin edir. Bildirişi oxuyun və istədiyiniz addımı seçin.

Tətbiqdən istifadə edərkən aşağıdakı kimi fərqli növlərdə məlumat xarakterli bildirişlər ilə qarşılaşa bilərsiniz:

- Qoşulma tapşırıqları ilə bağlı dəstək
- Cari qlükoza səviyyəniz barədə məlumat
- Qlükoza proqnozunuz barədə məlumat
- Aşağı qlükoza və yüksək qlükoza səviyyəniz barədə məlumat
- Tətbiq və ya mobil cihazınızın fərqli buraxılış növləri barədə məlumatlar nümunə kimi

### Bizimlə əlaqə

Problemlərlə üzləşsəniz, tətbiqin fəaliyyəti barədə suallarınız olarsa, yaxud tətbiq barədə daha çox məlumata ehtiyac yaranarsa, müştəri dəstəyi ilə əlaqə saxlayın. **Menyu > Bizimlə əlaqə** seçiminə toxunun.

### Ciddi hadisələr barədə məlumat verilməsi

Avropa İttifaqı və oxşar tənzimləyici rejimə malik ölkələrdəki pasiyent/istifadəçi/üçüncü tərəf üçün; bu cihazın istifadəsi zamanı və ya onun istifadəsi nəticəsində ciddi bir hadisə baş verərsə, istehsalçıya və milli səlahiyyətli orqana məlumat verin.

### Çap edilmiş İstifadəçi təlimatı

Bu İstifadəçi təlimatının çap edilmiş versiyasını istəyirsinizsə, müştəri dəstəyi ilə əlaqə saxlayın. Çap edilmiş versiya pulsuz təmin edilir və bir neçə gün ərzində sizə göndəriləcək.

### İstifadəçi təlimatının endirilməsi

Bu İstifadəçi təlimatını aşağıdakı ünvandan endirmək mümkündür **https://tools.accu-chek.com/documents/dms/index.html**.*

* endirmə data istifadəsi/xərclərə səbəb ola bilər

# 15 Texniki məlumatlar

**Məhsulun adı**

Accu-Chek SmartGuide Predict tətbiqi

**Tətbiqin növü**

Mobil cihazlar üçün tətbiq

**Tətbiqin versiyası**

3.4

İstifadə etdiyiniz tətbiq versiyası haqqında ətraflı məlumat üçün **Menyu > Məhsul barədə məlumat** seçiminə toxunun.

**Dəstəklənən əməliyyat sistemləri**

Tətbiq yalnız konkret əməliyyat sistemləri üçün əlçatandır. Tətbiqdən yalnız əməliyyat sistemi tətbiq tərəfindən dəstəklənirsə, istifadə edin.

Uyğun əməliyyat sistemləri və onların versiyaları barədə ən son məlumatlar üçün aşağıdakına toxunun **https://tools.accu-chek.com/documents/dms/index.html**.

**Dəstəklənən mobil cihazlar**

Yalnız mobil cihaz fəaliyyət üçün tələb olunan iOS və ya Android versiyasını dəstəkləyirsə, tətbiqi endirə bilərsiniz.

Uyğun mobil cihazlar barədə ən son məlumatlar üçün aşağıdakı linkə toxunun **https://tools.accu-chek.com/documents/dms/index.html**.

**Dəstəklənən brauzerlər**

Accu-Chek hesabı yaratmaq və tətbiqə giriş etmək üçün sizə bir brauzer lazımdır. Hazır quraşdırılmış brauzeriniz yoxdursa, əvvəlcə onu endirməlisiniz.

- Google Chrome
- Mozilla Firefox
- Mozilla Firefox Focus
- Microsoft Edge
- Samsung Internet

Bu tətbiq iOS cihazlarında Safari brauzeri ilə uyğundur.

# 16 Tətbiq işarələrinin izahı

| Simvol | Təsvir |
|---|---|
| **Tətbiq naviqasiyası** | |
|  | Əsas səhifə |
|  | Nümunələr |
|  | Menyu |
| **Ekran naviqasiyası** | |
|  | Geri |
|  | Bağlayın |
|  | Yoxlama işarəsi |
|  | Əlavə məlumat |
| **Tətbiq menyusu** | |
|  | Hesab |
|  | Qoşulmalar |
|  | Bildiriş parametrləri |
|  | Hesabatı ixrac edin |
|  | Məhsul barədə məlumat |

# 16 Tətbiq işarələrinin izahı

| Simvol | Təsvir |
|---|---|
|  | Bizimlə əlaqə |
|  | İstifadəçi təlimatı |
|  | Telefon |
|  | E-poçt |
| **Əsas ekran** | |
|  | Xəbərdarlıq mesajı |
|  | Gecə üçün aşağı proqnoz əlçatandır |
|  | Gecə üçün aşağı proqnoz əlçatan deyil |
|  | Qlükoza proqnozu əlçatandır |
|  | Qlükoza proqnozu əlçatan deyil |

# 17 Simvolların izahı

| Simvol | Təsvir |
|---|---|
|  | Elektron istifadə təlimatlarına nəzər salın |
|  | Diqqət, bu məhsul ilə birlikdə təmin edilən istifadə təlimatlarındakı təhlükəsizliklə bağlı qeydlərə istinad edin. |
|  | İstehsal tarixi |
| MD | Tibbi cihaz |
|  | İstehsalçı |
| CH REP | İsveçrədəki səlahiyyətli nümayəndəni göstərir |
| UDI | Unikal cihaz identifikatoru |
| CE | Müvafiq Aİ Qanunlarının müddəalarına uyğundur |

SON YENİLƏMƏ: 2025-07
1000092485(01)

ACCU-CHEK və ACCU-CHEK SMARTGUIDE Roche-nin əmtəə nişanlarıdır.

App Store, Apple Inc. şirkətinin ABŞ və digər ölkələrdə qeydiyyatdan keçirilmiş xidmət nişanıdır.

IOS, Cisco şirkətinin ABŞ və digər ölkələrdəki əmtəə nişanı və ya qeydiyyatdan keçirilmiş əmtəə nişanıdır.

Android, Google Play və Google Play loqosu Google LLC-nin əmtəə nişanlarıdır.

Wi-Fi®, Wi-Fi Alliance® təşkilatının qeydiyyatdan keçirilmiş əmtəə nişanıdır.

Bütün digər məhsul adları və əmtəə nişanları öz müvafiq sahiblərinin mülkiyyəti hesab edilir.

© 2025 Roche Diabetes Care

Roche Diabetes Care GmbH
Sandhofer Strasse 116
68305 Mannheim, Germany

www.accu-chek.com

CE 0123